

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 29 (23.441)

13 fevral 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymıəti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı Kürdəmir rayonuna səfəri çərçivəsində Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib.

Prezident İlham Əliyevin iştirakı ilə həmin gün Kürdəmir rayonunun Karrar qəsəbəsində "Qlobal Aqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin aqroparkının təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Kürdəmirdə "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib.

Dövlətimizin başçısı həmin gün "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Kürdəmir filialının da açılışında iştirak edib.



## A.S.Novruzovun Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azad Sevindik oğlu Novruzov Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 fevral 2020-ci il*

## Dövlət proqramından irəli gələn vəzifələr uğurla yerinə yetirilib

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Qəbul olunan dövlət proqramlarının icrası, güzəştli şərtlərlə kreditlərin verilməsi, aqrar sahədə müasir infrastrukturun yaradılması kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə də əkinçiliyin inkişafına geniş imkanlar açıb, bol məhsul istehsalına və daxili bazarın tələbatının ödənilməsinə səbəb olub.*

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi də muxtar respublikada əhalinin keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təminatına imkan verir. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası 2019-cu ildə də davam etdirilib. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin "Araz" Elm-İstehsalat Birliyinin Ordubad və Şərur dayaq məntəqələrində, ümumilikdə, muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik 372 meyvə sortunun, birliyin həyətyanı kolleksiya bağında isə üzümün 54 sortunun genetik fondu toplanıb. Toplanmış toxumlar gələcəkdə artırılması, həmin sortların çoxaldılaraq torpaq mülkiyyətçilərinə paylanması və yeni bağların salınması məqsədilə "Araz" Elm-İstehsalat Birliyinin Toxum bankına verilib. Meyvə bağlarına qulluq göstərilməsinə dair aparılan elmi-tədqiqat işləri çərçivəsində 8 elmi məqalə, 30 buklet və informasiya bülleteni hazırlanıb. AMEA Naxçıvan Bölməsində və Naxçıvan Dövlət Universitetində, ümumilikdə, 3 monoqrafiya, 1 dərslik və digər nəşrlər həyata keçirilib.

Bu dövrdə tərəvəz əkini sahələrinin genişləndirilməsinə də diqqət artırılıb, 3228 hektar ərazidə kartof, 6246 hektar ərazidə tərəvəz əkinləri həyata keçirilib.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada həyata keçirilən əsas tədbirlərdəndir. Müasir istixana komplekslərinin yaradılması ilin istinilən fəslində bazarın tələbatının ödənilməsinə imkan verir. Özəl investisiya qoyuluşu hesabına Babək rayonunun Nəcəfalidizə kəndində 1950 kvadratmetr istixana təsərrüfatının yaradılması, Şərur rayonunun Çərçiboğan kəndində 1,3 hektar sahədə qızılgül əkininin həyata keçirilməsi başa çatdırılıb. Dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunun Ələkli kəndində 640 kvadratmetr istixana təsərrüfatının, Babək rayonunun Məzrə kəndində 1 hektar ərazidə salınmış üzüm bağının və Ordubad rayonunun Qoşadizə kəndində 50 kvadratmetr limon istixana təsərrüfatının yaradılması davam etdirilib. 2019-cu ildə belə təsərrüfatların yaradılması məqsədilə bir layihəyə 15 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.



Ötən il meliorasiya və irriqasiya sistemlərinin qurulması sahəsində də bir sıra tədbirlər görülüb, Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 59,4 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Yaşıllıqların suvarılması üçün muxtar respublikanın bütün rayonlarında, ümumilikdə, 61,56 kilometr suvarma xətti çəkilib, mövcud suvarma xətləri təmir edilib.

Meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişaf etdirilməsinə münbit şərait yaradan amillərdən biri də əldə olunan məhsulun soyuducu anbarlarda saxlanılmasıdır. 2019-cu ildə dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına Şərur rayonunun Sərxanlı, Cəlilkənd, Yuxarı Aralıq, Danyeri kəndlərində ümumi tutumu 1040 ton olan soyuducu anbarların genişləndirilməsi, Yengicə, Çərçiboğan, Çomaxtur, Zeyvə, Düdəngə kəndlərində ümumi tutumu 2000 ton olan yeni soyuducu anbarların tikintisi başa çatdırılıb. Babək rayonunun Nehrəm kəndində "Sumqala Tikinti Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2500 ton tutumlu, özəl investisiya qoyuluşu hesabına isə Şərur rayonunun Yuxarı Aralıq kəndində 125 ton tutumu olan soyuducu anbarların yaradılması davam etdirilib. Həmçinin soyuducu anbarın yaradılması üzrə 2 layihənin maliyyələşdirilməsinə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 65 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

Həmin soyuducu anbarlara 5900 ton meyvə-tərəvəz məhsulları tədarük edilib. Bu məhsulların keyfiyyəti daim nəzarətdə saxlanılıb, 158 halda orta nümunələr götürülərək təhlil edilib. Sahələrdə yetişdirilən bostan-tərəvəz məhsullarının bazarlara təklif edildiyi nəzərə alınaraq 1062 halda səyyar laboratoriya analizləri aparılıb.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən istehsal olunan məhsullardan 137 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılıb, 15 anbar, 2 istixana, 35 bostan və 43 satış obyektindən götürülmüş məhsulların 105 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğu müəyyən edilib.

İxtisaslaşmış meyvə və tərəvəzçilik təsərrüfatlarının, müasir emal, qablaşdırma müəssisələrinin yaradılması və ixracyönümlü məhsul istehsal edən sahibkarlara maliyyə dəstəyinin göstərilməsi istiqamətində tədbirlər də davam etdirilib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən kənd təsərrüfatı yönümlü 102 layihənin maliyyələşdirilməsinə 1 milyon 553 min 100 manat dəyərində, o cümlədən meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, meyvə qurusunun qablaşdırılması, yabanı bitkilərin tədarükü və meyvə araqlarının istehsalı sahələrinin yaradılması məqsədilə 9 layihəyə 67 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib.

Ötən il əhali tələbatının ucuz və keyfiyyətli məhsullarla ödənilməsi məqsədilə Naxçıvan şəhərində və rayon mərkəzlərində həftənin şənbə günləri kənd təsərrüfatı, emal sənayesi məhsullarının satış-yarmarkaları təşkil olunub.

Son illər muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılıb. Babək rayonunun Nehrəm kəndində mövcud üzüm bağı genişləndirilərək 150 hektara çatdırılıb.

Bu dövrdə əkinçilik üçün yararlı olmayan torpaq sahələrində meliorativ tədbirlərin görülməsi və yeni meyvə bağlarının salınması da diqqətdə saxlanıb, Kəngərli rayonundakı püstə bağına 500 calaq olunmuş püstə fidanı əkilib, Türkiyə Respublikasından 500 yüksək məhsuldarlıqlı calaqüstü gətirilərək püstə tinglərinə calaq edilib. Ərazinin 6 hektar sahəsində 1100 dibçəkdə yetişdirilmiş püstə fidanı, 4 hektarında isə 2 kiloqram püstə toxumları ilə bərpa işləri aparılıb.

2019-cu ildə Heydər Əliyev Su Anbarının ətrafında 0,5, Naxçıvançay vadisi ərazisindəki Məzrə kəndi yaxınlığında 0,5, Rüstəm Dövlət Meşəsinin yuxarı hissəsində 1, Kültəpə Dövlət Meşəsi yaxınlığında 1,5, Biçənək kəndinin ərazisində isə 0,5 hektar sahədə meyvə bağları salınıb.

Naxçıvançay vadisi boyu 3, Əlincəçay vadisi boyu 2, Gilançay vadisi boyu 8 hektar sahədə yabanı meyvə və giləmeyvə, həmçinin mədəni meyvə toxumlarından istifadə edilməklə toxumla əkin aparılıb. Əkin-bərpa işlərində 7975 müxtəlif növ meyvə tingindən və 117 kiloqram meyvə və giləmeyvə toxumlarından istifadə olunub.

Arazboyu düzənlik ərazilərdə salınmış meyvə bağlarında tinglərə aqrotexniki qaydada qulluq göstərilib. Əkin-bərpa işlərində 5362 müxtəlif növ meyvə tingindən, 825 üzüm kolundan istifadə edilib.

Bəhs olunan dövrdə muxtar respublika ərazisində 252,3 hektar (13,8 hektar üzüm bağı olmaqla) sahədə meyvə bağları salınıb, 4,2 hektar ərazidə toxmacarlıq və qələmkökləndirmə sahələri yaradılıb, 567 kiloqram badam, tut, alma, armud, heyva, gilənar, üzüm, cəviz toxumlarından istifadə olunub. Həmçinin 40 min üzüm, 38 min 500 iydə qələmi əkilib, 3500 kiloqramdan artıq yerli məhsuldar meyvə sortlarının toxum materialı, yabanı meyvə və giləmeyvə toxumları tədarük edilib, bərpa məqsədilə 5166 dibçəkdə ting yetişdirilib. Sığorta işinin əhəmiyyəti mövzusunda müvafiq seminarlar keçirilib, 1591 vətəndaşa məxsus əkin sahəsi sığortalanıb.

Xarici iqtisadi fəaliyyətlə məşğul olan biznes subyektləri ilə görüşlər zamanı geni dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş məhsullar, onların milli iqtisadiyyata və milli genofondumuza ziyanı barədə maarifləndirmə işi aparılıb. Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən daha çox geni modifikasiya olunması ehtimal edilən məhsulların siyahısı hazırlanaraq gömrük sərhəd-buraxılış məntəqələrinə təqdim edilib, belə məhsulların analizlərinin aparılmasına başlanılıb və muxtar respublikaya idxal olunan qida məhsullarının markalanmasına ciddi nəzarət edilib.

Şərur, Culfa, Babək, Sədərək rayonlarında bataqlaşan və şoranlaşan torpaq sahələrində kollektor-drenaj şəbəkəsinin bərpasına başlanıb, dövlət proqramının qəbulundan ötən dövr ərzində 142,36 kilometr kollektor, 21,47 kilometr açıq drenaj lildən təmizlənib, 31,78 kilometr yeni açıq, 4,12 kilometr yeni qapalı drenaj tikilib.

Tingçilik təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi məqsədilə Şərur rayonunda 5 sahibkar 8 hektara qədər, Babək rayonunda isə 3 sahibkar 4 hektar əkinəyararlı torpaq sahəsində məhsuldar sortlardan ting yetişdirməklə satışını həyata keçiriblər. Culfa rayonunun Kırna kəndində 0,5 hektar ərazidə 30 min üzüm tingi salınmaqla tingçilik təsərrüfatı yaradılıb.

Kənd təsərrüfatında ziyanverici və xəstəliklərə qarşı mübarizə tədbirlərinin və pestisidlərin satış şəbəkələrinin genişləndirilməsi diqqətdə saxlanılıb, 475 hektar yonca sahəsində zərərvericilərə, 1121 hektar taxıl zəmisində və cavan meyvə bağlarında gəmiricilərə, 93 hektarda Kolorado kartof böcəyinə, 8012 hektar taxıl sahəsində alaq otlarına, 21 hektarda bəzək bitkilərinin zərərverici və xəstəliklərinə qarşı kimyəvi mübarizə tədbirlərinin aparılmasında torpaq mülkiyyətçilərinə metodik köməkliklər göstərilib. Bu məqsədlə xarici ölkələrdən müxtəlif spektrli bitki-mühafizə dərmanları alınıb gətirilərək "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin mərkəzi və rayon bazarlarında yaradılmış aptеklərində satışı həyata keçirilib.

Muxtar respublikanın əkinəyararlı torpaq sahələrinin məhsuldarlığının yüksəldilməsində intensiv amillərin rolunun artırılması, əkin dövriyyəsinə daxil olan torpaqların tərkibinin öyrənilməsi, torpaqların və əkinlərin rayonlaşdırılması diqqət mərkəzində saxlanılıb. Kəngərli rayonunda taxılçılıq, bostançılıq, tərəvəzçilik və meyvəçilik üzrə əkin atlası hazırlanıb.

Kənd təsərrüfatı məhsullarının tədarükü, satışı və emalı üzrə cəmiyyət və birliklərin yaradılmasının dəstəklənməsi məqsədilə Ailə Təsərrüfatları İctimai Birliyi təsis edilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



*"Bu gün ölkəmizin ümumi inkişafının tərkib hissəsi kimi muxtar respublikamızda da quruculuq işləri aparılır, kəndlər abadlaşır, yollar çəkilir, yeni məktəblər tikilir, su-kanalizasiya sistemləri qurulur. İnsanların rahat yaşaması, təsərrüfatların inkişafı, əhalinin məskunlaşması üçün dövlət tərəfindən lazımi tədbirlər görülür. Həyata keçirilən tədbirlər Vənənd kəndinin timsalında aydın görünür. Bu gün Azərbaycanda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sabitlik, inkişaf və dövlət-xalq birliyi mövcuddur. Ölkə Prezidenti tərəfindən həyata keçirilən tədbirlərin nəticəsidir ki, sabitlik və inkişaf Azərbaycanın həyat tərzinə çevrilib. Muxtar respublikada da inkişaf təmin olunmuşdur".*

*Müasirləşən kəndlərimiz*

# Şaxtalı qış günündə yaşanan sevinc

## *Vənənd abad yaşayış məntəqəsinə çevrilib*

Bu sözləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Ordubad rayonunun ən böyük yaşayış məntəqələrindən biri olan Vənənd kəndində həyata keçirilmiş kompleks quruculuq tədbirlərindən sonra açılış mərasimi zamanı kənd camaatı ilə görüşündə deyib. Ali Məclisin Sədri onları Vənəndin abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə təbrik edərək öz tövsiyələrini də verib: *"Vənənd muxtar respublikamızın böyük kəndlərindəndir. Kənddə aparılan quruculuq işləri həcminə görə bir rayonda görülən işlərə bərabərdir. Artıq kənddə bütün sahələr üzrə müasir iş şəraiti yaradılıb. Yaxşı iş şəraiti olan yerdə isə yüksək əhval-ruhiyyə, dövlətə və sabaha inam olur. Bir sözlə, Vənənd müasir Azərbaycan kəndinin nümunəsidir. Ona görə də yaradılanlar qorunmalı və onlardan səmərəli istifadə olunmalıdır".*

Məlumat üçün bildirək ki, kənddə quruculuq tədbirləri çərçivəsində tam orta və uşaq musiqi məktəbləri, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri üçün binalar tikilib, rayonun Xanağa-Ağrı-Dizə-Vənənd kənd avtomobil yolu əsaslı yenidən qurulub. Həmçinin fiber-optik, yeraltı, hava rabitə və elektrik, su xətləri çəkilib, elektrik dayaqları basdırılıb, bir neçə transformator yarımstansiyası yenidən qurulub, qaz xətlərində təmir-bərpa işləri aparılıb. 10,7 kilometrlik yol abadlaşdırılıb. Yol yatağı genişləndirilərək asfalt örtük salınıb, su keçidləri qoyulub, 2800 metrlik beton kanal çəkilib. 900 metr uzunluğundakı kənddaxili yollar da təmir olunaraq qum-çınqıl qatı verilib. Bütün bunlar qarlı qış günlərinin birində vənəndlilərə böyük sevinc hissləri yaşadıb. Onlarla söhbətimizdə bunu bir daha gördük. Dövlət qayğısının kənd adamlarına verdiyi yüksək ovqat bizi də sevindirdi.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yaqut Babayeva uzun illərdir, bu vəzifədə çalışır. Onunla iki mərtəbədən ibarət kənd mərkəzində həmsöhbət oluruq. Deyir ki, mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, o cümlədən Yeni Azərbaycan Partiyası Vənənd kənd ərazi ilk təşkilatı, arxiv və 58 yerlik zal yerləşir. Bütün təşkilatlar üçün müasir iş otaqları ayrılıb və lazımi inventarlarla təchiz edilib. Mütaliə həvəskarları kənd kitabxanasındakı 11 min 705 kitabdan istifadə etmək imkanı qazanıb. Burada oxunması zəruri olan kitablardan ibarət sərgi düzəldilib.

Rabitə evində poçt bölməsinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb, 568 yerlik yeni nəsil ATS quraşdırılıb. Kənddə internet istifadəçiləri 228-ə çatıb. Müsahibim onu da vurğulayır ki, bu, muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının geniş surətdə tətbiqi və onlardan səmərəli istifadənin təmin olunmasının ifadəsidir. Yeni poçt bölməsi və yeni nəsil ATS-in quraşdırılması isə əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsini daha da yüksəltməyə imkan verib.

Yaqut Babayeva söhbət zamanı bir qədər keçmişə qayıdır: – Yadımə illər əvvəl muxtar respublikanın yaşadığı vəziyyət düşür. Nəinki ucqar dağ kəndində, heç rayon mərkəzlərində belə, yeni tikintidən söhbət gedə bilməzdi. Sovet dönəmində tikilmiş binalar da tamamilə sıradan çıxmışdı. Necə deyərlər, hər kəs öz başının hayındaydı. Gündən-günə çoxalan qayğılar insanları məngənə kimi sıxırdı. Onların bu gündən sabaha ümidləri qalmamışdı. Ancaq çətin günün ömrü çox çəkmədi. Ölkəmizin, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın üzərindən qara buludlar dağılmağa başladı. Yeni günlərin təməli də asan qoyulmadı; bu prosesdə insan amili ön plana çəkildi... Reallaşdırılan tədbirlər həyatımızın bütün sahələrinə nüfuz etdi. Paytaxt şəhərimizdən tutmuş ən ucqar dağ və sərhəd kəndlərinə qədər quruculuq işlərinə start verildi. Hər il bir neçə yaşayış məntəqəsi öz əvvəlki görkəmini tamamilə dəyişərək müasirliyə qovuşdu. Bu proses bu gün də davam etdirilir... Bunun ifadəsidir ki, Vənənddə də tikilən obyektlər görkəmi ilə kəndə müasirlik gətirib.



İcra nümayəndəsi ilə yeni obyektləri gəzirik. Bunlardan ən böyüyü kənd tam orta məktəbinin binasıdır. Məktəbin direktoru Təranə İsmayılova pedaqoji kollektivə göstərilən belə qayğı üçün minnətdarlığını bildirərək deyir ki, təhsil ocağının binası müasir tədris şəraitinə və yüksək maddi-texniki bazaya malikdir. Burada dərslərin yeni təlim üsulları ilə tədrisi üçün lazım olan bütün avadanlıqlar quraşdırılıb. Öyrənirik ki, 432 şagird yerlik ikimərtəbəli tam orta məktəbdə 344 şagird təhsil alır. Burada 27 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 kompüter otağı, 3 elektron lövhəli sinif, hərbi kabinə, 2 şahmat sinfi, müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı müəllim və şagirdlərin ixtiyarına verilib. Məktəbin kitabxana fondunda dərslik və bədii ədəbiyyatlardan ibarət 9830 kitab vardır. Kompüter otaqlarında isə 43 kompüter quraşdırılaraq internetə qoşulub. Təhsil ocağındakı müasir laboratoriyalar, fənn kabinələri, elektron lövhəli siniflər dərslərin yüksək səviyyədə tədrisinə imkan yaradıb. Məktəbin həyətində açıq idman qurğuları qoyulub. Bu imkanlardan səmərəli istifadə olunmasına ciddi önəm verilir.

Məktəbin müəllimi Yəhya Rzayev deyir ki, belə şərait müqabilində başlıca vəzifəmiz dövlətə, dövlətçiliyə layiq vətənpərvər nəsil yetişdirməkdir. Təbii ki, bugünkü gənc bütün müsbət keyfiyyətləri özündə cəmləşdirməli, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalı, öz dilini, ədəbiyyatını, tarix və mədəniyyətini bilməli, yüz illər boyu formalaşaraq bu günümüzə gəlib çatmış milli-mənəvi dəyərlərimizə sahiblik hissini həyat amalına çevirməli, ərazi bütövlüyümüz, sərhədlərimizin qorunmasında üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməyə hazır olmalıdır. Pedaqoji kollektivimiz çalışır ki, şagirdlərimiz məhz belə tərbiyə olunsunlar. Qazandığımız nailiyyətlər deməyə əsas verir ki, müəllimlərimizin çəkdikləri zəhmət hədər getmir. Hər il məktəb məzunlarının böyük əksəriyyəti yüksək ballarla ali məktəb tələbəsi adını qazanır. Yeni məktəb binası və burada yaradılan müasir şərait imkan verəcək ki, qarşıdakı illərdə tələbə adını qazanan məzunlarımızın sayı daha da çox olsun.





Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Şövkət Kərimova deyir ki, Vənənd tarixən təhsilə önəm verən bir yer olub. Bu torpaq həmişə fəxr edir ki, Vənənd şair Qüdsi Vənəndinin doğulub boya-başa çatdığı yurd yeridir. Müxtəlif elm, təhsil ocaqlarının məzunları kəndə gələrkən onlarla şagirdlərin görüşlərini təşkil edirik. Bu da bugünkü gəncliyin vətənpərvərlik ruhunda böyüməsi, təhsilli olmağa ruhlandırmaq məqsədi daşıyır. İstifadəmizə verilən müasir təhsil ocağı isə məsuliyyətimizi daha da artırıb...

Kənddə həm də 3 mərtəbəli uşaq musiqi məktəbi fəaliyyət göstərir. Əvvəllər köhnə binada yerləşən bu məktəb çox uğurlara imza atıb, muxtar respublika və ölkə səviyyəli tədbirlərdə iştirak edən şagirdlər yüksək yerlərə sahib olublar. Yeni binanın isə belə uğurların sayının daha də çox olacağına imkan yaradacağı şəksizdir. Bu fikrimizlə razılaşan məktəbin direktoru İsa Salmanovdan öyrənirik ki, burada direktor və müəllimlər otaqları, musiqi ədəbiyyatı, solfecio, nağara, qarmon, saz, kamança, nəfəsli alətlər, tar, fortepiano, xanəndəlik sinifləri olmaqla, 34 sinif otağı, 22 yerlik konsert zalı, musiqi ədəbiyyatı və oxunması zəruri olan kitablarla da təmin edilmiş kitabxana, musiqi alətlərinin təmiri otağı və arxiv yerləşir.

Məktəbdə xalq çalğı və nəfəsli alətlər orkestrləri, sazçalan və nağaraçalanlar ansamblları, eləcə də xor kollektivi yaradılıb. Burada milli mədəni dəyərlərimizə ehtiramın bir daha şahidi olduq. Məktəbdə yaradılmış musiqi alətlərinin təmiri otağı müxtəlif zəruri təmir alətləri ilə təchiz olunub. Musiqi alətlərini məktəbin müəllimi Vahid Məmmədov təmir edir.

Baş həkim, stomatoloq üçün kabinə, palata, tibb bacısı, fizioterapiya, doğuş, manipulyasiya, peyvənd, qeydiyyat, aptek və texniki otaqdan ibarət olan həkim ambulatoriyasına stomatoloji qurğu, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa, hemometr, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar verilib. Fizioterapiya kabinəsi isə elektroterapiya və ultrasəslə, ultrayüksəktezlikli cərəyanla müalicə aparatları, parafinörtmə qazanı və solyuks lampası ilə təmin olunub.

Səhiyyə müəssisəsində qeydiyyat elektron formada aparılır. Burada quraşdırılan kompüter səhiyyə informasiya idarəetmə sisteminə qoşulub. Səhiyyə ocağının kollektivi ambulatoriyaya müraciət edənlərə böyük fəallıqla öz köməkliyini göstərir, tibbi maarifləndirmə işlərinə böyük önəm verirlər. Bütün bunlar isə kənd adamları tərəfindən razılıqla qarşılanır.

Tibb bacısı Sevinc Səfərova deyir ki, ulu öndərimiz Heydər Əliyevin ölkəmizin inkişafında mühüm xidmətləri vardır. Bu gün qürur duyuruq ki, dahi şəxsiyyətin siyasi xətti muxtar respublikamızda da uğurla davam etdirilir, bütün kəndlərimizdə müasir şərait yaradılır. Bunu Vənəndin timsalında da görmək olar. O, "Şərq qapısı" qəzetindən gəldiyimi bilib qəzet vasitəsilə onlara yaradılan şəraitə görə minnətdarlıqlarını çatdırmağı xahiş etdi.

Vənəndlilərə göstərilən dövlət qayğısının daha bir ifadəsi yeni xidmət mərkəzinin istifadəyə verilməsidir. Burada gözəllik salonu, bərbərxana, dərzi, ət satışı yeri, ərzaq, sənaye və təsərrüfat malları mağazaları, eləcə də 3 anbar yerləşir. Elə buradaca görüşüb həmsöhbət olduğum Əfifə Bağırovanın 97 yaşı var. Onun ailəsində 7 övlad böyüyüb. Hamısı ali təhsil alıb. Ona görə də bu ocağı ziyalılar ailəsi kimi tanıyırlar.

El ağbirçəyi deyir ki, Vənənd zəngin təbiətə malik bir yurd yeridir. Bu da uzunömürlülüyün vacib şərtidir. Burada istehsal etdiyimiz məhsullar – bal, pendir, ət, müxtəlif meyvələr özümüzü tamamilə ödəyir, yerdə qalanını bazara da çıxarırıq. Vənəndin ərazisində müalicəvi otlar da çoxdur. Onları da yığıb istifadə edirik. Həmyerlilərim Naxçıvan şəhərində keçirilən müxtəlif festivallarda, satış-yarmarkalarda öz məhsulları ilə iştirak edir, ailə büdcələrinə xeyli gəlir gətirirlər. İllər də bir-birindən uğurlu gəlir. Ötən ili də bol məhsulla başa vurduq. Kəndimizin belə gözəlləşməsi isə məni ürəkdən sevindirir. Arzu edirəm ki, bu kənd, bu rayon, muxtar respublikamız həmişə sevinc içərisində yaşasın.

Yeri gəlmişkən onu da qeyd edim ki, Vənənd muxtar respublikamızın iqtisadiyyatına öz töhfəsini verən böyük yaşayış məntəqələrindən biridir. Kənddə sahibkarlıq subyektləri, ailə təsərrüfatları bu işdə mühüm rol oynayırlar. Bu gün burada fəaliyyət göstərən "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli Cəmiyyətində 150-dək adda məhsul istehsal edilir. Həmin məhsullar muxtar respublika ilə yanaşı, Bakıda da özünə xeyli alıcı qüvvəsi tapıb.

Onlarla ailə təsərrüfatında dadlı meyvələr, şirələr, turşular, heyvandarlıq məhsulları istehsal olunur. Artıq Vənəndin torpaq qədri bilən, onun səxavətini görən insanları yetişdirdikləri məhsulun əllərində qalacağı barədə düşünmürlər. Bilirlər ki, bu istiqamətdə zəruri olan bütün tədbirlər həyata keçirilib. Bu isə onları torpaqdan daha möhkəm yapışmağa sövq edib. Çalışırlar, məhsul yetişdirirlər, həm özləri qazanır, həm də daxili bazarımız.

Ailə təsərrüfatı başçısı Xaliq Mailov deyir ki, Vənəndin "Hacı Zeynalabdin", "Hacı Zeynal", "Məscid", "Kahadalı", "Böyük güştülük" adlanan bağlarında yetişdirilən ərik, güştü, cəviz sortlarını saxlamağa, artırmağa çalışırıq. Nişov, Nağdı, Qasım çeşmələrindən qidalanan bağlarda yetişdirilən meyvələr dadtamı ilə seçilir. Odur ki, hər ilin yaz və payız mövsümlərində yeni meyvə tingləri əkilir, cəviz, alma, heyva bağları salınır.

*... Daha bir yaşayış məntəqəmiz müasirlik donuna büründü. Gözəlləşdi, bir sıra problemləri öz həllini tapdı. Qəsəbə timsallı bu yurd yerinin insanları görülən belə genişmiqyaslı tədbirlərin məhz onların yaxşı yaşamaları üçün həyata keçirildiyini dərindən dərk edirlər, muxtar respublikanın ictimai-siyasi həyatında gedən proseslərdə fəallıq göstərirlər. Bilirlər ki, bu prosesin təməlində düzgün seçilən yol dayanıb. Bu gün vənəndlilərin də hər biri bütün naxçıvanlılar kimi o yolun yolçusudur.*

**Muxtar MƏMMƏDOV**

***“Hərb sənətinə laqeyd yanaşmaq hakimiyyətin itirilməsinə səbəb olan əsas amildirsə, bu sənətə mükəmməl sahib olmaq da hakimiyyətin zirvəsinə aparan yoldur”. İtalyan filosof və yazıçısı Nikkolo Makiavellinin “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan “Hökmdar” əsərindəki bu qısa və dərinməzmunlu fikirlər hərb sənətinin bir ölkənin, dövlətin mövcudluğunda, inkişafında, qüdrətlənməsində, dünyada layiqli mövqe tutmasında nə dərəcədə önəmli olduğunu aşılayır. Müəllif əsərdə yüksək analizetmə qabiliyyəti ilə dünya hərb tarixinin, bu qədim, əvəzolunmaz sənətin incəliklərini baş verən müharibələrin, siyasi gedişlərin timsalında aydın, müqayisəli şəkildə təhlil edərək nəyin doğru, nəyin yanlış olduğunu təfərrüatları ilə ortaya çıxarır...***



*Ordum varsa, yurdum var*

# Qüdrətin, yenilməzliyin zirvəsinə aparan yol

Tarixboyu mübariz, mətin, vətənpərvər, yurdsevər oğulları ilə öyünən xalqımızın hərb keçmişinə nəzər salanda “Hökmdar” əsərindəki nüanslar, həqiqətlər aydın şəkildə gözlərimiz önündə canlanır. Mükəmməl sərkərdəlik bacarığı ilə seçilən Cavanşir, 816-837-ci illər arasında ərəb işğalçılarının 6 ordusunu darmadağın edən Babək, erkən orta əsrlərdə həyata keçirdikləri xüsusi taktikalar vasitəsilə döyüşlərdə qələbə çalan hökmdarlarımızdan Atabəy Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qara Yusif, Uzun Həsən, 14 il ərzində az qüvvə ilə 14 vilayəti özünə tabe etməyə nail olan, Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai və adını sadalamadığım onlarla dövlət xadimlərimiz hərb tariximizdə dərin, silinməz iz buraxıblar. Təbii ki, tarixi şəxsiyyətlərimizin əldə etdiyi qələbələr onların dərindən yiyələndikləri hərb sənəti sayəsində, bu sahədə qazandıqları biliklərin köməkliyi ilə həyata keçirdikləri uzaqgörən strategiya nəticəsində mümkün olmuşdu. XIX-XX əsrlərdə baş verən bir sıra müharibə və münaqişələrdə iştirak edən ayrı-ayrı Azərbaycan hərbçiləri də özünəməxsus taktika və hərbi strategiyaları ilə fərqləniblər. Bakıda Bakıxanovlar, Lənkəranda Talışinskilər, Qazaxda Şıxlinskilər və Vəkilovlar, Gəncədə Cavad xanlar, Qarabağda Cavanşirlər, Naxçıvanda Kəngərlilər sülaləsindən çıxmış generallar hərb sənəti tarixinə adlarını qızıl hərflərlə yazdırıblar.

1918-1920-ci illərdə görkəmli generallarımız Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər peşəkar hərbçilərimizin rəhbərliyi ilə Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərbi hazırlığa və intizama malik milli ordu hissələri formalaşdırıldı. Qısa zaman çərçivəsində milli ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr mövcud hakimiyyətə qarşı yönəlmiş bir sıra daxili və xarici qüvvələrin yaratdığı münaqişələrin yatırılmasına müvəffəq oldu. O zaman Azərbaycan ordusu sıralarında yer alan Hüseyn xan, Cəmşid xan Naxçıvanskilər, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Həbib bəy Səlimov kimi səriştəli generalların əməyi də danılmazdır. İkinci Dünya müharibəsinin gedişi, nəticələrinə əsasən belə qənaətə gəlinir ki, döyüşlərdə əsl şücaət nümayiş etdirən oğullarımız Azərbaycan xalqının zəngin hərb tarixi ənənələrinə malik olduğunu bir daha göstərdi. Həmin dövrdə Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi, cəbhələrdə general Həzi Aslanov, Mehdi Hüseynzadə, Ziya Bünyadov, İsrafil Məmmədov, Gəray Əsədov, Məlik Məhərrəmov kimi yüzlərlə qəhrəman övladlarımız şücaət və mərdlik göstərərək hərb sənətinin zirvəsinə yüksəldilər.

Təəssüf ki, müharibədən sonrakı dövrdən 1969-cu ilədək sovet rəhbərliyinin məkrli siyasəti, qısqanc münasibəti nəticəsində Azərbaycanda hərbi kadr hazırlığı, demək olar ki, yox səviyyəsinə endi, bu sənət sahəsi unudulmağa başladı. Lakin xalqımızın böyük oğlu Heydər Əliyevin



ölkəmizə birinci rəhbərliyi dövründə vəziyyət köklü surətdə dəyişildi, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail olundu. Beləliklə, dahi siyasətçinin uzaqgörən fəaliyyəti və fədakar səyi nəticəsində hələ ölkəmizin müstəqillik əldə etməsindən 20 il öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın təşkili reallaşdırıldı, ordu quruculuğu məsələsi ümdə vəzifə kimi ön plana çəkildi. Ümummilli lider 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin – görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail oldu. Xüsusilə qeyd etmək lazımdır ki, həmin dövrdə hər il, təxminən, 60 min azərbaycanlı gənc ordu sıralarına göndərilsə də, onların böyük əksəriyyəti məqsədli şəkildə inşaat batalyonlarına salınırdı. Məhz ulu öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Bakıda hərbi liseyin açılması ilə sovet hakimiyyətinin qəsdən yaratdığı süni maneələr aradan qaldırıldı, ölkəmizdə hərb sənətinə maraq, səriştəli hərbçi kadrların yetişməsinə geniş imkanlar yarandı. Bu proses ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra ulu öndərin göstərişi və təşəbbüsü ilə daha da yüksələn xətlə inkişaf etdi. Ümummilli liderin özünün də qeyd etdiyi kimi Ona canı qədər əziz olan Naxçıvanın etibarlı müdafiəsini hər zaman düşünüb və elə bu amil “Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması haqqında” 1998-ci il 13 mart tarixli Sərəncamın verilməsi ilə bir daha özünü təsdiq etdi. Məktəbin 1999-cu il oktyabrın 13-də açılış mərasimində ulu öndərimiz Heydər Əliyevin səsləndirdiyi dəyərli fikirlər isə hərb sənətini seçən hər bir naxçıvanlının yaddaşında silinməz təəssürat buraxdı: ***“Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas torpağından ayrıdır, blokada şəraitində yaşayır. Amma mən bilirəm ki, hərbi peşəyə yiyələnmək, zabit olmaq istəyən gənclər Naxçıvanda həmişə çox olubdur. Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır. Bunu düşünmək, bilmək və vaxtında təşkil etmək lazım idi. Mən qeyd edirəm ki, Vasif Talıbov bu təşəbbüsü qaldırdı və mən əmr verdim, bu filial yarandı”.***

Hər il hərb sənətini seçən yüzlərlə gəncin yoluna işıq saçan Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə sabahın peşəkar kadrları yetişir. Ötən günlərdə hərbi liseyin ilk məzunlarından olan, hazırda bu məktəbdə xidmət edən mayor Hikmət Hacıyevlə söhbətim hərb sənətinin incəlikləri, muxtar respublikamızda bilikli gənc hərbçi kadrların formalaşması istiqamətində görülən işlər barədə oldu. O, Fransa imperatoru, bacarıqlı sərkərdə Napoleon Bonapartın “Hərb sənəti, elə bir elmdir ki, onda hesab edilməyən və düşünülməyən bir şey müvəffəq ola bilməz” fikrini xatırladaraq dedi ki, dünya hərb təcrübəsinə əsasən döyüşdə şüurlu şəkildə davranıb, düşmənə qarşı müxtəlif təsir formaları axtarıb taparaq müəyyən təcrübəyə riayət etməklə hərbi hiylə yolunu seçənlər qalib gəlirlər. Bu mənada, hərb sənəti insandan praktik vərdişlər, yaradıcı zəka, təşəbbüskarlıq, qətiyyət və digər xarakterik xüsusiyyətlər tələb edir. İndiyədək baş verən müharibələrə nəzər salsaq, görərik ki, görkəmli sərkərdələr praktik vərdişləri və fəndləri, döyüşdən-döyüşə əldə edilmiş təcrübi qənaətləri zamana və şəraitə uyğunlaşdırıb məharətlə tətbiq etməklə özlərini bu sənətin zirvəsinə ucaldıblar. Təbii ki, digər sənət sahələri kimi, hərbdə də əsas amil təməlin necə qoyulmasıdır. Yəni gələcəyin bacarıqlı, bilikli hərbçisi erkən yaşdan ailə mühitində düzgün şəkildə formalaşmalıdır. Valideynlərin övladlarını həm mənəvi, həm də fiziki cəhətdən hərbçi kimi yetişməsi üçün onları düzgün istiqamətdə yönləndirmələri mühüm faktordur. Yəni uşaqlar erkən yaşlarından hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmalı, sağlam, gümrah, dözümlü bədən formalaşdıran idman növləri ilə məşğul olmalıdırlar. Daha sonra bu proses məktəbdə davam etdirilir. Bildiyimiz kimi, bu gün muxtar respublikada fəaliyyət göstərən bütün tam orta məktəblərdə nəzəri bilikləri və praktik vərdişləri düzgün yerinə yetirmək üçün hərbi kabinələr yaradılıb. Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisinə xüsusi önəm verilir. Həmin dərslərdə şagirdlərə Vətəni müdafiənin əsasları, taktiki hazırlıq, atəş hazırlığı, hərbi nizamnamələr, sıra təlimi, mülki müdafiə, hərbi-tibbi hazırlıq və hərb sənətinə məxsus bu kimi digər biliklər öyrədilir. Orduda xidmət edən zabitlərin vaxtaşırı məktəblilərlə görüşməsi, şagirdlərin





tez-tez hərbi liseylə tanış olmaları, interaktiv dərslərə qoşulmaları, hərbi hissələrə aparılaraq orada praktik məşğələlərə cəlb edilmələri də söz yox ki, bu işə öz müsbət təsirini göstərir. Hamımıza məlumdur ki, müstəqil ölkəmizin müdafiə potensialının artırılması istiqamətində görülən işlər hər il yeni silah və texnikaların alınması, istehsalı ilə nəticələnir. Hazırda tədris olunan dərsliklərdə də müasir silahlar, raketlər, Azərbaycan hərbi sənayesinin istehsalı olan və ordumuzun arsenalına daxil edilən bəzi silah və texnikalar barədə məlumatlar yer alıb ki, bu da hərb sənətinə yiyələnmək istəyən şagirdlər üçün böyük imkanlar yaradır. Təbii ki, bütün bu sadalananlar, sadəcə, ilkin nəzəri və praktik vərdişlər formalaşdırmaq məqsədi daşıyır.

Yəni bacarıqlı, səriştəli hərbçi olmaq istəyənlər mütləq yolunu hərbi məktəblərdən salmalıdır. Bu mənada, muxtar respublikamızda fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin fəaliyyəti təqdirəlayiqdir. Burada dərslər hərbi vəziyyətə tam uyğunlaşdırıldığı üçün kadrların hazırlanması prosesi sürətlə, düzgün aparılır. Liseyi müvəffəqiyyətlə başa vuranlar Bakı şəhərindəki Heydər Əliyev adına Ali Hərbi Məktəbə üz tutaraq hərb sənətinə daha da dərindən yiyələnməyə çalışırlar.

Hikmət Hacıyev onu da deyir ki, bir ordunun gücü onun potensial imkanları, silah-sursat arsenalının və hərbi qulluqçularının döyüş qabiliyyətinin lazımi səviyyədə olması ilə səciyyələndirilir. Günümüzədək dünya tarixində baş verən müharibələri təhlil etsək, görərik ki, qazanılan qələbələrin təməlində heç də təkcə texniki üstünlük əsas olmayıb, uğurun əldə edilməsində döyüş hazırlığı da böyük rol oynayıb. Türk tarixinin şanlı səhifələrindən sayılan Çanaqqala zəfəri bu baxımdan ən gözəl nümunə sayıla bilər. Həmin vaxt gedən döyüşlərdə qarşı tərəfin texnikası güclü olsa da, türk əsgərinin şücaəti, əzmkarlığı və döyüş qabiliyyəti qalib gəldi. Elə ölkəmiz müstəqillik əldə etdikdən sonra ordumuzun qazandığı qələbələrin, xüsusilə də Aprel döyüşləri və Günnüt əməliyyatının uğurlu alınmasında məğrur əsgərlərimizin şücaəti və təlim təcrübəsi, hərb sənətinin incəliklərini dərindən bilən komandirlərin taktiki gedişlər etməsi həlledici məqam oldu. Əlahiddə Ümumqoşun Ordunun müdafiə qüdrətinin artırılması istiqamətində görülən işlər, mütəmadi olaraq taktiki təlimlərin keçirilməsi, heç şübhəsiz, hərbi qulluqçuların hərb sənəti ilə bağlı biliklərini, döyüş təcrübəsini artırır və son illər qazanılan uğurlara əsasən əminliklə demək olar ki, Silahlı Qüvvələrimiz tezliklə Böyük Qələbəni bayram edəcəklər.

“...Müdrik hökmdarlar həmişə öz qoşunları ilə döyüşə getməyə üstünlük veriblər. Düşünüblər ki, başqalarının ordusu ilə qalib gəlməkdənsə, öz əsgərləri ilə məğlub olmaq daha yaxşıdır, zira özgə silahı ilə qazanılmış qələbə həqiqi qələbə deyil”. “Hökmdar” əsərindəki bu kiçik və dəyərli fikirlərdən yola çıxaraq demək olar ki, tarixboyu məkrli planlar ardınca qaçan, özgə kölgəsində gizlənən ermənilərdən fərqli olaraq vətənpərvər, yurdsevər xalqımızın hər zaman hərb sənətinin zirvəsində dayanan mübariz oğulları olub və bu gün də vardır. Vətənin keşiyində gecə-gündüz ayıq-sayıq dayanan, bilik və təcrübələrini gündən-günə daha da artıran məğrur oğullarımızdan tezliklə zəfər nəğməsini eşitmək diləyi ilə...

**✍ Nail ƏSGƏROV**



# Əmək qanunvericiliyi, kadr və kargüzarlıq işinin təşkilinə dair təlim keçirilib

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin tədris zalında kadr və kargüzarlıq işinin qanunvericiliyə uyğun təşkili, insan resurslarının idarə olunmasının təkmilləşdirilməsi, iş təcrübəsinin yüksəldilməsi və bu sahədə yeniliklərin tətbiqi məqsədilə təlim keçirilib. Təlimdə dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların bu sahə üzrə çalışan mütəxəssisləri və iştirak üçün qeydiyyatdan keçmiş şəxslər olmaqla, ümumilikdə, 24 nəfər iştirak edib.

Təlimi ekspert qismində nazirliyin Ümumi işlər və kadrlar şöbəsinin müdiri Tural Əliyev keçib. Azərbaycan Respublikasının əmək qanunvericiliyi, “Dövlət qulluğu haqqında” Qanunun müvafiq maddələri, əmək müqaviləsi, məzuniyyət hüququnun tənzimlənməsi, məzuniyyət və onun növləri, əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun növləri, kadrlara dair tələblərin müəyyənləşdirilməsi, kargüzarlığın aparılması və təkmilləşdirilməsi ilə bağlı mövzular müzakirə olunub.

Sonra iştirakçılara mövzuları əhatə edən test tapşırıqları verilib və müvafiq qiymətləndirmə aparılıb. Nəticəyə uyğun olaraq müvəffəqiyyət qazananlara “Əmək münasibətlərinin praktik uçotu” kitabı və Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

## Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişaf tarixinə həsr olunmuş dəyərli kitab

Bədən tərbiyəsi və idman birbaşa insanların fiziki və mənəvi sağlamlığının, cəmiyyətin genofondunun qorunub saxlanılması və inkişaf etdirilməsi, milli potensialın və insan kapitalının səmərəli şəkildə reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edən sahələrdəndir. Bu sahənin gələcəyini düzgün proqnozlaşdırmaq, inkişaf strategiyası və meyillərini elmi-tarixi faktlar əsasında müəyyənləşdirmək baxımından onun tarixini hərtərəfli şəkildə dərindən öyrənmək və öyrətmək son dərəcə aktualdır. İdman tarixçilərinin bu istiqamətdəki hər bir addımı təqdirəlayiqdir. Bu baxımdan muxtar respublika hüdudlarından kənarda da yaxşı tanınan idmançı-müəllim Valeh Əlixanovun bu yaxınlarda işıq üzü görən “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın inkişaf tarixi” adlı kitabı əhəmiyyətliliyi ilə seçilir.

Yeni nəşrlə tanış olarkən bir daha belə bir qəti qənaətə gəlirsən ki, müstəqillik dövründə bədən tərbiyəsi və idman sahəsində qazandığımız uğurların təməlində dövlətimizin bu sahəyə diqqət və qayğısı, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mükəmməl idman siyasəti dayanır. Ulu öndərin bu sözlərini dönə-dönə xatırlayırsan: ***“İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir... Bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik”.***

Azərbaycanın bu gün dünya miqyasında idman dövləti kimi tanıdılmasında isə idmançılarımızın ən böyük himayəçisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tarixi xidmətləri yaşadığımız dövrün parlaq səhifələrini təşkil edir.



Vətənimiz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında bu gün özünün yüksək inkişaf və tərəqqi dövrünü yaşayır. Azərbaycan tarixində həmişə özünəməxsus yeri və rolu ilə seçilən bu diyar ölkə həyatının bütün sahələrində olduğu kimi, bədən tərbiyəsi və idman hərəkatında da öncüllüyü, inkişaf tempi və miqyası, əhatə dairəsinin genişliyi, kütləviliyi və peşəkarlığı, ənənələrə sadiqliyi və yeniliyə meyilliliyi, dönməzliyi və davamlılığı, sadalamadığımız onlarla digər keyfiyyət və məziyyətləri ilə həmişə diqqəti cəlb etmişdir.

Bütün bunlardan bəhs edən yeni nəşr haqqında danışmağa onun müəllifini tanıtmaqdan başlayaq. Valeh Əlixanov beynəlxalq dərəcəli hakim, SSRİ idman ustası, Azərbaycan Respublikasının fəxri bədən tərbiyəsi və idman işçisi, Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının müəllim-məşqçisi, Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman kafedrasının dosenti, onlarla gənc naxçıvanlını yetişdirib ölkə idmanına bəxş etmiş, muxtar respublika ümumtəhsil məktəbləri üçün yüzlərlə müəllim-məşqçi kadrların hazırlanmasında xüsusi əməyi olan bir müəllimdir.

Valeh Əlixanovun haqqında bəhs etdiyimiz kitabı Naxçıvanda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən yüksək keyfiyyətlə nəşr edilmişdir. Naxçıvan Dövlət Universitetinin Elmi Şurası tərəfindən kitab dərs vəsaiti kimi nəşrə tövsiyə olunmuşdur. Vəsait, ilk növbədə, ali və orta ixtisas təhsili məktəblərində bədən tərbiyəsi və idman, habelə digər yaxın ixtisaslar üzrə bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Kitabdan ixtisaslı müəllimlər, bədən tərbiyəsi və idman sahəsi ilə məşğul olan qurum və təşkilatlarda işləyən məsul şəxslər, tədqiqat işi aparanlar və idmanla yaxından maraqlananlar yararlana bilər.

11 fəsil, 54 bölmədən ibarət olan kitabda Naxçıvanda qədim dövrlərdən başlayaraq muxtariyyət yaranana qədər və sonrakı illərdə bədən tərbiyəsi və idmanın inkişafının bütün aspektləri, o cümlədən ayrı-ayrı idman növlərinin inkişaf tarixi izlənilir, bu sahələr üzrə qəbul edilmiş mühüm dövlət sənədləri yer alır, onlar müəllif tərəfindən ətraflı şərh olunur. Yeni nəşrdə ölkəmizin müxtəlif arxiv və muzeylərində, bəzi idman veteranlarının şəxsi arxivlərində qorunub saxlanılan mühüm sənədlər öz əksini tapıb. Naxçıvan idman məktəblərinin yetişdirdiyi idmançıların yerli və beynəlxalq yarışlardakı uğurları, bədən tərbiyəsi və idman işçilərinə verilən fəxri adlar və digər dövlət mükafatları haqqında, həmçinin idman qurumları və federasiyalara dair məlumatlar kitabın ayrıca bölməsində verilir. Son bölmədə isə xüsusilə müstəqillik dövründə idman sahəsində əldə edilmiş uğurlar, dövlətimiz tərəfindən ölkə miqyasında və muxtar respublikada idmanın inkişafı üçün yaradılmış maddi-texniki baza, o cümlədən Olimpiya İdman kompleksləri, respublika və regional əhəmiyyətli idman kompleksləri və stadionları haqqında statistik məlumatlar yer alıb. Bu illər ərzində ölkədə, xüsusilə Naxçıvanda keçirilən bütün beynəlxalq idman tədbirlərinə, bu tədbirlərdə qədim diyarın yetirdiyi idmançılara, onların uğurlarına vəsaitdə xüsusi yer ayrılıb.

Yeni nəşrin əsas məziyyəti ondan ibarətdir ki, müəllif tarixi faktları təkcə sadalamaqla kifayətlənmir, onları aydın, elmi dildə şərh edir. Əhəmiyyətlisi odur ki, o, kitabı yazarkən bir tərəfdən bu qəbildən olan vəsaitlərə verilən tələbləri, digər tərəfdən isə oxucunu, xüsusilə idmanı özünün həyat amalına çevirmək istəyən tələbə-gənci, onun yaşını, intellektual, mənəvi-psixoloji və fiziki imkanlarını nəzərə almışdır. Bu da, görünür, müəllifin uzun illər ərzində müəllim-məşqçi kimi qazandığı təcrübəsindən qaynaqlanır. Muxtar respublikada istənilən idman sahəsi üzrə zəruri tarixi məlumatları özündə ehtiva edən bu vəsaitin digər məziyyəti isə onun bu sahədə çalışan şəxslər üçün stolüstü kitab kimi zəruri mənbə rolunu oynamasındadır.

*Sonda Valeh Əlixanovun “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın inkişaf tarixi” adlı kitabının dəyərli elmi-metodik nəşr kimi bu sahədə olan boşluğu dolduracağına, oxucularının yeni və sistemli bilgilərə olan tələbatını ödəyəcəyinə inanırıq.*

**Qurban QURBANLI**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti***

Estafet

## Bu bağçanın uşaqları



Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***“Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir”.*** Dahi rəhbərin bu deyimində böyük həqiqət var və O, bütün fəaliyyəti boyu uşaqlara xüsusi qayğı ilə yanaşıb. Ulu öndərin bu istiqamətdə müəyyənləşdirdiyi siyasət bu gün ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan şəhərində, rayon mərkəzlərində yeni bağça binaları inşa olunur, mövcud olanlar yenidən qurulur, onların maddi-texniki bazaları gücləndirilir. Məktəbyaşlı uşaqların orta məktəbə hazırlanması, onlarda ilkin vərdişlərin yaradılması və düzgün istiqamətləndirilməsi üçün tədbirlərin həyata keçirilməsi hamımız tərəfindən yüksək dəyərləndirilir. Valideynlər öz uşaqlarını əminliklə belə müəssisələrə etibar edirlər. Uşaq bağçalarında tərbiyə alan balacalar məktəbə gedərkən öz fəallıqları ilə seçilir, məktəbdaxili intizam qaydalarını bilirlər. Belə bağçalardan biri də Şərur şəhərində fəaliyyət göstərir. Bu günlərdə həmin bağçada olduq.

Məktəbəqədər tərbiyə müəssisəsinin müdiri Günel Əliyeva söhbət zamanı həm bir sakin, həm də qadın kimi muxtar respublikamızda fəaliyyət göstərən uşaq bağçalarında hərtərəfli şəraitin yaradılmasını fidanlara göstərilən ən böyük qayğı kimi dəyərləndirildiyini bildirdi. Öyrəndik ki, bu bina 2010-cu ildə istifadəyə verilib. 3 mərtəbədən ibarət bağça 250 yerlikdir və burada 2 körpə, 4 orta, 3 böyük, 4 məktəbəqədər hazırlıq qrupları var. Uşaqların təlim-tərbiyəsi ilə 30 tərbiyəçi müəllim, 16 xadimə-dayə məşğul olur. Bağçanın həyətində əyləncə qurğuları quraşdırılıb körpələrin ixtiyarına verilib. Bağçada camaşırxana, yataqxana, məşq zalı var.



Məktəbəqədər tərbiyə müəssisəsində xüsusi qayğıya ehtiyacı olan 3 uşaq diqqətimizi çəkdi. Həmin uşaqlar məktəbəqədər hazırlıq qrupundadır. Onlarla fərdi hazırlığa üstünlük verilir.

Öyrəndik ki, hər qrup üçün otaq ayrılıb, məşğələ cədvəli tərtib edilib. Uşaqlara yaşlarına müvafiq olaraq müxtəlif ibtidai bilgilər verilir, əyləncəli oyunlar təşkil edilir, şeirlər öyrədilir, nağıllar danışılır. Bütün bunlar isə uşaqların nitq qabiliyyətini formalaşdırır, onların söz ehtiyatını artırır. Bağçada komandalar şəklində keçirilən yarışlar uşaqlara həm də ilkin kollektivçilik hissləri aşılayır. Bu baxımdan idman məşğələləri onların daha çox xoşuna gəlir.

Qabiliyyət və bacarığı ilə seçilən uşaqların əl işləri hazırlamalarına, rəsm çəkmələrinə diqqətlə yanaşılır, kağızdan, plastilindən düzəldilmiş müxtəlif nümunələrdən ibarət sərgilər təşkil olunur. Bağçanın fəal üzvlərindən olan Gülnur Əliyeva, Zəhra Əliyeva, Zeynəb Məmmədli və başqalarının maraqlı rəqslərinə də tamaşa etdik.

Uşaqlar ulu öndərimizə, doğma yurdumuza həsr olunmuş şeirləri bədii qiraət etdilər, nağıllar söylədilər. Bir sözlə, bağçada onların dünyagörüşünün hərtərəfli formalaşdırılması, məktəbəhazırlıq səviyyəsinin artırılması və mənalı istirahətləri üçün lazımi şərait yaradılıb. Onu da öyrəndik ki, uşaqlar üçün ekskursiyalar təşkil edilir, zəngin təbiətimizlə tanışlıq diqqət mərkəzində saxlanılır.

Bağçaya cəlb olunmuş uşaqların sağlam və yerli ərzaq məhsulları ilə təchizatına da nəzarət olunur.

Burada görüşdüyümüz valideyn Pərinaz Tağıyeva bildirdi ki, bağçada yaradılan şərait övladlarımızın sağlam böyüməsinə xidmət edir. Muxtar respublikamızda uşaqlarımıza göstərilən dövlət qayğısından qürur duyuram.

Bağçadan və buradakı şən, xoşbəxt uşaqlardan ayrılarkən Ali Məclis Sədrinin uşaqlarla bağlı dəyərli fikirlərini xatırladım: ***“Uşaqlara qayğı göstərmək, onları himayə etmək gələcəyimizə hesablanmış tədbirlərdir. Ona görə də məktəbəqədər tərbiyə müəssisələrində uşaqların tərbiyəsi, onlara ilkin biliklərin dərindən öyrədilməsi, məktəbə hazırlanması və əsl vətəndaş kimi yetişdirilməsi diqqət mərkəzində saxlanılmalıdır”.***

Haqqında bəhs etdiyimiz Şərur şəhərindəki bağçaya uşaqlarını etibar edən valideynlər də bunu görür, yaradılmış şəraitə görə minnətdarlıqlarını bildirirlər.

**Günay İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin II kurs tələbəsi***

## Maarifləndirici tədbir keçirilib

Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə müəllim və şagird kollektivinin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər, Təhsil, Gənclər və İdman nazirliklərinin Tədbirlər Planına uyğun olaraq maarifləndirici tədbir keçirilib. Tədbirin məqsədi orta təhsil müəssisələrindəki şagirdlərin milli-mənəvi dəyərlər, vətənpərvər ruhda tərbiyə edilməsi, asudə vaxtlarında idman yarışlarına, oxunması zəruri olan kitablarının mütaliəsinə cəlb olunmalarıdır. Digər bir məqsəd isə onları tütün məhsullarının zərərli təsirləri, sosial şəbəkələrdən təhlükəsiz istifadə, yetkinlik yaşına çatmayanlar və gənclər arasında cinayətkarlığın, hüquqpozmaların profilaktikası, radikal və ekstremist yönümlü dini təriqətlərlə bağlı maarifləndirmək olub.



Tədbiri giriş sözü ilə 5 nömrəli tam orta məktəbin uşaq birliyi təşkilatının rəhbəri Məhsəti Əliyeva açıb.

Sonra yeniyetmə və gənclərdə vətənpərvərlik hisslərinin yüksəldilməsi, yetkinlik yaşına çatmayanlar və gənclər arasında cinayətkarlığın, hüquqpozmaların profilaktikası, sosial şəbəkələrdən təhlükəsiz istifadə, radikal və ekstremist yönümlü dini təriqətlərin yayılmasının qarşısının alınması mövzularında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis baş leytenantı Səid Babayev çıxış edib. Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodisti Şahmar Hüseynov milli-mənəvi dəyərlər və oxunması zəruri olan kitabların mütaliəsi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin baş məsləhətçisi Tural İsmayılov isə yetkinlik yaşına çatmayanların asudə vaxtlarının düzgün təşkilinin və sağlam həyat tərzinin əhəmiyyətindən danışıblar.

✍ **Pərviz HACILI**

## Faunamızda yeni quş növü aşkar edilib



AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun əməkdaşı Hüseyn Rəsulzadə Araz Su Anbarının aşağı hissəsinin sol sahil düzənliyində tədqiqatlar nəticəsində ilk dəfə olaraq Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikası faunasında yeni quş növünü – bozumtul çalağanı aşkar edib.

Bozumtul çalağan yırtıcı quş olub, qırğılar fəsiləsinə mənsubdur. Elmi məlumatlara görə, faunamızın yeni sakini – qırğı Afrikada, İspaniyanın cənubunda, Hindistanda açıq landşaftlarda, otlu düzlərdə və seyrək meşəliklərdə azsaylı növ olub, oturaq həyat tərzi keçirir. Ortaboylu quşdur, kütləsi 220-250 qramdır. Mavi-göyümtül kürək, açıq-kül rəngli boz döş, xüsusən uçuş zamanı aydın nəzərəçarpan tünd-qırmızı gözlər çalağanı digər növlərdən fərqləndirən əsas əlamətlərdir. Fəal ovçudur, qidasını başlıca olaraq gəmiricilər təşkil etdiyindən faydalı quş hesab edilir.

Qeyd edək ki, muxtar respublika şəraitində çalağanın həyat tərzinin, bioloji və ekoloji xüsusiyyətlərinin izlənilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Babək rayonunun Çeşməbasar kəndində yaşayan Əsgərov Bakir Zeynal oğlunun adına olan $30^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 159